**AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ**

AZ 1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi 26 Tel.: (+994 12) 489-07-07 Faks: (+994 12) 498-72-69 Veb: www.supremecourt.gov.az Elektron poçt: contact@supremecourt.gov.az

**29 aprel 2026-cı il** **1-8-10/2-3234/2026**

**Azərbaycan Respublikasının məhkəmələrinə (siyahı üzrə)**

İşə mahiyyəti üzrə baxılması zamanı məhkəmələr tərəfindən işdə iştirak edən şəxslərin vəsatəti və ya məhkəmənin öz təşəbbüsü əsasında cəlb edilən qiymətləndiricilərə xidmət haqqının ödənilməsi ilə bağlı aparılmış təhlillər məhkəmələrə qanunvericiliyin tətbiqinə dair bir sıra məsələlər üzrə əsaslandırılmış izahın verilməsi zərurətini üzə çıxarmışdır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 64.1-ci maddəsinə görə işə baxılarkən məhkəməyə kömək etmək üçün zəruri texniki, digər bilik və düşüncəyə malik olan şəxslər mütəxəssis qismində çıxış edə bilər.

Məhkəmələrə izah edilir ki, qiymətləndiricilərin fəaliyyəti mahiyyət etibarı ilə qiymətləndirmə obyektinin dəyərinin müəyyən edilməsi üzrə xüsusi biliklərə əsaslandığından MPM-in 64.1-ci maddəsində nəzərdə tutulan mütəxəssis anlayışı özündə qiymətləndiriciləri də ehtiva edir.

Odur ki, mülki prosessual qanunvericilikdə prosesin digər iştirakçısı olan mütəxəssislə bağlı nəzərdə tutulmuş qaydalar (hüquqlar, vəzifələr, onlara etiraz verilməsi əsasları, o cümlədən, onlara verilməli olan məbləğlərin ödənilməsi və s.) olduğu kimi qiymətləndiricilərə münasibətdə də tətbiq edilməlidir.

MPM-in 107-ci maddəsinə görə məhkəmə xərcləri dövlət rüsumundan və işə baxılması ilə əlaqədar olan məsrəflərdən ibarətdir. Həmin Məcəllənin 115.0.1-ci maddəsinə görə isə, mütəxəssislərə verilməli olan məbləğlər işə baxılması ilə bağlı məsrəflərə aid edilmişdir.

Mütəxəssislərə verilməli məbləğin tərəflərdən alınması qaydasını tənzimləyən MPM-in 117.1 və 118.1-ci maddələrinə görə mütəxəssisə verilməli məbləği xahiş etmiş

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Çingiz Əsgərov / Ali Məhkəmə / Sədrin müavini

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/6dCCXcF7tlqP7S5D7BO2UDetIl2YOc1TNXgZOmC7%2BoM%3D

tərəf onu əvvəlcədən məhkəmənin depozit hesabına keçirir. Həmin xahişi tərəflərin hər ikisi etdikdə, yaxud məhkəmənin təşəbbüsü ilə edildikdə, tələb olunan məbləği tərəflərin hər ikisi bərabər qaydada məhkəmənin depozitinə keçirirlər. Həmin məbləği məhkəmə xərclərindən azad edilmiş tərəf ödəmir və həmin məbləğ dövlət hesabına aid edilir. Şahidlərə, ekspertlərə, mütəxəssislərə və tərcüməçilərə məbləğ, onlar öz vəzifələrini yerinə yetirdikdən sonra məhkəmə tərəfindən depozit hesabından verilir.

Qeyd edilənlərə əsasən qiymətləndiricilərin göstərdiyi xidmət haqqının ödənilməsi MPM-in sözügedən normalarında nəzərdə tutulmuş qaydalara uyğun tərəflərdən tutulmalı və yekun məhkəmə aktının (qətnamənin, qərardadın) nəticə hissəsində göstərilməlidir. Məhkəmə xərcləri haqqında məsələ hakim tərəfindən həll edilməmişsə, iş üzrə qətnamə və ya qərardad çıxarmış hakim, işdə iştirak edən şəxslərin ərizəsi ilə və ya onları xəbərdar edərək öz təşəbbüsü ilə əlavə qətnamə və ya əlavə qərardad qəbul edə bilər (MPM-in 220.5, 229.1.3, 260, 262-ci maddələri).

**Sədr müavini** **Çingiz Əsgərov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Çingiz Əsgərov / Ali Məhkəmə / Sədrin müavini

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/6dCCXcF7tlqP7S5D7BO2UDetlI2YOc1TNXgZOmC7%2BoM%3D